**Ovçuluq haqqında**
**Azərbaycan Respublikasının Qanunundan**
**Ç I X A R I Ş**

**III fəsil**
**OVÇULUQ**

**Maddə 13. Ovçuluq bileti və üzvlük bileti**

13.1.Ovçuluq bileti ovçuluq fəaliyyətini həyata keçirmək üçün hüquq verən sənəddir. Ovçuluq bileti ***<u>müvafiq icra hakimiyyəti orqanı</u>*** tərəfindən verilir.

13.2.Ovçuluq biletinin forması, qeydiyyatı və ovçuluq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərə verilməsi qaydaları ***<u>müvafiq icra hakimiyyəti orqanı</u>*** tərəfindən müəyyən edilir.

13.3.Ovçuluq biletindən yalnız onun sahibi istifadə edə bilər.

13.4.Üzvlük bileti ovçunun ovçular cəmiyyətində üzv olduğunu təsdiq edən sənəddir. Ovçuya üzvlük bileti ovçuluq bileti əsasında üzvü olduğu ovçular cəmiyyəti tərəfindən verilir.

13.5.Üzvlük biletinin forması müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır.

**«Ovçuluq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanından**
**Ç I X A R I Ş**

«Ovçuluq haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

2.Müəyyən edilsin ki:

2.1.«Ovçuluq haqqında» Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsində, 9.1-ci maddəsində, 10.4-cü maddəsində, 11.3-cü maddəsində (ayrı-ayrı yırtıcı heyvan növlərinin vurulması qaydasının müəyyən edilməsinə dair), ***<u>13.2-ci maddəsində,</u>*** 14.2-ci maddəsinin üçüncü cümləsində, 14.6-cı maddəsində, 15.1-ci maddəsində, 21.4-cü maddəsində, 21.5-ci maddəsində və 22.4-cü maddəsində ***<u>nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir</u>***;

2.2-1.həmin Qanunun ***<u>13.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini</u>*** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, ***<u>Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində olan "Hərbi Ovçuluq İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətinin üzvlərinə münasibətdə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir</u>***.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2004-cü il 30 sentyabr tarixli 147 nömrəli qərarı ilə**
**TƏSDİQ EDİLMİŞDİR**

**«Ovçuluq biletinin forması, qeydiyyatı və ovçuluq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərə verilməsi qaydası»ndan**
**Ç I X A R I Ş**

## I. ÜMUMİ MÜDDƏALAR

1.1.Bu qayda «Ovçuluq haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ««Ovçuluq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 may tarixli 69 nömrəli Fərmanına əsasən hazırlanmışdır və ovçuluq biletinin formasını, qeydiyyatını və ovçuluq fəaliyyəti ilə məşğul olmaq. istəyən şəxslərə verilməsi qaydasını müəyyən edir.

1.2.Ovçuluq bileti ovçuluq fəaliyyətini həyata keçirmək üçün hüquq verən sənəddir və 18 yaşına çatmış Azərbaycan Respublikasının vətəndaşına Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ***və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində olan «Hərbi Ovçuluq İttifaqı» Məhdud Məsuliyyətli Cəmiyyətinin üzvlərinə münasibətdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən verilir***.

1.3.18 yaşına çatmamış, habelə məhdud fəaliyyət qabiliyyətli və fəaliyyət qabiliyyəti olmayan şəxslərin ovçuluq fəaliyyəti ilə məşğul olması qadağandır.

1.4.Ovçuluğun minimum üzrə sınağı Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində olan «Hərbi Ovçuluq İttifaqı» Məhdud Məsuliyyətli Cəmiyyətinin üzvlərinə münasibətdə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin müvafiq qaydada yaratdıqları komissiya tərəfindən keçirilir.

## II. OVÇULUQ BİLETİNİN FORMASI

2.1.Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən ovçuluq bileti bu qaydanın tələblərinə uyğun hazırlanır və 1 nömrəli əlavədə göstərilən formada verilir.

2.3.***Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən tabeliyində olan «Hərbi Ovçuluq İttifaqı» Məhdud Məsuliyyətli Cəmiyyətinin üzvlərinə verilən ovçuluq bileti bu qaydanın tələblərinə uyğun hazırlanır və 2 nömrəli əlavədə göstərilən formada verilir***.

## IV. OVÇULUQ BİLETİNİN OVÇULUQ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLMAQ İSTƏYƏN ŞƏXSLƏRƏ VERİLMƏSİ

4.3.Ovçuluq bileti iki il müddətinə ***(Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində olan «Hərbi Ovçuluq İttifaqı» Məhdud Məsuliyyətli Cəmiyyətinin üzvlərinə münasibətdə müddətsiz)*** verilir və verildiyi müddət üçün etibarlıdır.

## IV. OVÇULUQ BİLETİNİN OVÇULUQ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLMAQ İSTƏYƏN ŞƏXSLƏRƏ VERİLMƏSİ

4.1.Ovçuluq bileti almaq istəyən şəxs aşağıdakı sənədləri təqdim etməlidir:

ərizə;

ərizəçi tərəfindən ov silahının saxlanması, gəzdirilməsi və istifadəsi hüququnu təsdiq edən şəhadətnamənin surəti; şəxsiyyət vəsiqəsinin surəti; 3x4 ölçüdə iki ədəd rəngli fotoşəkil.

4.2.Ovçuluq bileti almaq istəyən şəxsin ərizəsi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində ***və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində olan "Hərbi Ovçuluq İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətinin üzvlərinə münasibətdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətində*** qeydiyyata düşdüyü gündən 10 gün müddətində baxılır və ovçunun minimum sınağının nəticəsindən asılı olaraq verilir.

4.3.Ovçuluq bileti iki il müddətinə ***(Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində olan "Hərbi Ovçuluq İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətinin üzvlərinə münasibətdə müddətsiz)*** verilir və verildiyi müddət üçün etibarlıdır.

4.4.Ovçuluq biletinin verilməsindən imtina etmə halları aşağıdakılardır:

4.4.1.ərizəçinin təqdim etdiyi ərizədə qeyri-dürüst və təhrif olunmuş məlumatlar olduqda;

4.4.2.ov silahından istifadəyə dair verilən xüsusi icazənin və silahın respublika ərazisində saxlama müddətləri bitdikdə;

4.4.3.qanunvericilikdə nəzərdə tutulan digər hallarda.